| 1.14.3.3.3. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 25 402 330,0 | 24 100 680,0 | 1 301 650,0 |
| 1.14.3.3.3.1. | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 11 900 180,0 | 11 900 180,0 | |
| 1.14.3.3.3.2. | valyuta konvertasiyası | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.14.3.3.3.3. | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması və digər işlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi | 2 700 500,0 | 2 700 500,0 | |
| 1.14.3.3.3.4. | beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 500 000,0 | 500 000,0 | |
| 1.14.3.3.3.5. | məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və digər xidmətlər | 6 301 650,0 | 5 000 000,0 | 1 301 650,0 |
| 1.14.3.3.4. | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 4 480 000,0 | 4 480 000,0 | |
| 1.14.3.3.5. | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 11 000 000,0 | 11 000 000,0 | |
| 1.14.3.3.6. | Dövlət maddi və material ehtiyatlarının yaradılması | 5 600 000,0 | 5 600 000,0 | |
| 1.14.3.3.7. | Sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 50 000 000,0 | 50 000 000,0 | |
| 1.14.3.3.8. | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 125 000 000,0 | 125 000 000,0 | |
| 1.14.3.3.9. | İslahatlarla bağlı xərclər | 697 000 000,0 | 697 000 000,0 | |
| 1.14.3.3.10. | Yerli xərclərdə nəzərdə tutulmayan sosial-iqtisadi və digər təyinatlı tədbirlər | 11 651 568,0 | | 11 651 568,0 |
| 1.14.3.3.11. | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 2 931 426,0 | | 2 931 426,0 |

2. Müəyyən edilsin ki, bu fərmanın 1.11.1.1-ci yarımbəndində (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, 1.14.3.3.9-cu yarımbəndində (İslahatlarla bağlı xərclər) nəzərdə tutulan vəsaitin bölgüsünü isə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. bu fərmanın 1.1.2.1-ci yarımbəndində (Beynəlxalq maliyyə-kredit təşkilatlarına və ictimai-siyasi təşkilatlara üzvlük haqqı), 1.1.2.2-ci yarımbəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları), 1.1.2.4-cü yarımbəndində (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.6-cı yarımbəndində (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya), 1.13.2.4-cü yarımbəndində (Maliyyə sağlamlaşdırılması tədbirləri, o cümlədən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin nizamnamə kapitalının artırılması, həmin müəssisələrin fəaliyyəti ilə əlaqədar zərərin ödənilməsi də daxil olmaqla bəzi öhdəliklərin tənzimlənməsi, təcrübə və tətbiqi tədqiqatlar və ekspertlərin cəlb edilməsi), 1.14.3.1.2-ci yarımbəndində (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər) və 1.14.3.3.6-cı yarımbəndində (Dövlət maddi və material ehtiyatlarının yaradılması) nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.3. bu fərmanın 1.2.4.2-ci yarımbəndində (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər), 1.6.2.4-cü yarımbəndində (Sosial təminat sahəsində layihələrin həyata keçirilməsi), 1.13.1.2-ci yarımbəndində (Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi) və 1.14.3.3.7-ci yarımbəndində (Sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirsin;

3.4. bu fərmanın 1.1.1.69-cu, 1.1.1.70-ci, 1.1.2.3-cü, 1.1.3.17-ci, 1.4.7.15-ci, 1.6.1.5-ci, 1.7.4.13-cü, 1.10.1.6-cı, 1.11.1.3-cü, 1.12.2.2-ci, 1.13.1.1.1-ci, 1.14.2.2-ci, 1.14.3.3.5-ci və 1.14.3.3.8-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.5. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında əsasnaməni, büdcə ili ərzində vahid xəzinə hesabında olan vəsaitin qalığının (sərbəst qalığın) idarəetməyə verilməsi və Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondunun vəsaitinin idarə olunması, uçotunun aparılması və istifadəsi qaydalarının üç ay müddətində təkmilləşdirilməsini təmin etsin;

3.6. bu fərmanın 1.11.1.1-ci yarımbəndində (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri), 1.7.4.10.1-ci yarımbəndində (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı), 1.10.4.2-ci yarımbəndində (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı), 1.14.3.1.1-ci yarımbəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər), habelə 1.1.1.71-ci, 1.1.3.18-ci, 1.2.1.4-cü, 1.3.4.4-cü, 1.4.7.16-cı, 1.5.5.10-cu, 1.6.3.1-ci, 1.7.4.14-cü, 1.10.1.10-cu, 1.14.3.3.4-cü yarımbəndlərində (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərin növbəti illər üçün dövlət büdcəsinin layihələri ilə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsini təmin etsin;

3.7. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli fərmanı ilə təsdiq edilmiş strateji yol xəritələrinin tədbirlər planlarına uyğun olaraq:

3.7.1. ölkənin makroiqtisadi sabitliyinin daha da möhkəmləndirilməsi və maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının fəaliyyətinin təkmilləşdirilməsi və qəbul etdiyi qərarların effektiv icra mexanizmlərinin yaradılması ilə bağlı Şuranın fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın formalaşdırılmasına dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.7.2. Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddinin tənzimlənməsinə və fiskal dayanıqlığın gücləndirilməsi məqsədilə yeni fiskal qaydalara dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.7.3. müəyyən edilmiş iqtisadi və sosial siyasət kursunun qısa və ortamüddətli dövrdə hədəfləri, habelə investisiya layihələrinin həmin hədəflərə uyğun əsas istiqamətlərini özündə aydın şəkildə ehtiva edən, dövlət maliyyə resurslarının nəticəəsaslı bölgüsünü (sektorlararası və sektor daxilində), nəticələrin proqnozlaşdırıla bilmə imkanlarını, fiskal intizamın gücləndirilməsini, o cümlədən nəticələrə görə məsuliyyət nəzərdə tutan daha təkmil ortamüddətli xərclər çərçivəsinin və nəticəəsaslı büdcə mexanizminin formalaşdırılmasına dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.7.4. dövlət borcunun idarəolunması üzrə orta və uzunmüddətli strategiyanın layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsin;

3.8. bu fərmanın 4-cü hissəsindən irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Maliyyə Sabitliyi Şurası 2017-ci il üçün pul proqramını, "2017-ci ilə və ortamüddətli dövrə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması üzrə tədbirlər planı"nı (o cümlədən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin sağlamlaşdırılmasının sürətləndirilməsi ilə bağlı tədbirlər də daxil olmaqla) 2016-cı ilin sonuna qədər təsdiq etsin və tədbirlər planına uyğun olaraq icrasını təmin etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. 2017-ci il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxil olan vergi və ödənişlərin aylıq və rüblük bölgüsünü, bu fərmanın 4-cü hissəsinin tələblərini nəzərə alaraq, 15 gün müddətində həmin orqanlarla razılaşdırmaqla təsdiq etsin;

5.2. bu fərmanın 1.1.3.16-cı, 1.3.4.3-cü, 1.5.5.9-cu, 1.7.4.10.3-cü və 1.7.4.12-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

5.3. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci, 14-cü və 15-ci maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

5.4. bu fərmanın 1.1.1.71-ci, 1.1.3.18-ci, 1.2.1.4-cü, 1.3.4.4-cü, 1.4.7.16-cı, 1.5.5.10-cu, 1.6.3.1-ci, 1.7.4.14-cü, 1.10.1.10-cu, 1.14.3.3.4-cü yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini bir ay müddətində həyata keçirsin;

5.5. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

5.6. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi"nin 100.5-ci və 114.4-cü maddələrində nəzərdə tutulan protokolların, qərarların (qərardadların) 2017-ci ildə və növbəti illərdə aidiyyəti orqanların sifarişi əsasında hazırlanmasını, saxlanılmasını, uçotunu və təqdim edilməsini təmin etsin;

5.7. inzibati cərimələrin hesablanması və dövlət büdcəsinə ödənilməsi vəziyyətini təhlil etsin və görülmüş işlər barədə ildə bir dəfə noyabr ayının 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsin;

5.8. Dövlət mülkiyyətində olan səhmdar cəmiyyətlərinin və müəssisələrin dövlət zəmanəti ilə Azərbaycan Respublikası Mərkəzi Bankından cəlb etdikləri kreditlərin dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı, Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondunun vəsaiti, çatışmayan hissəsinin isə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Mərkəzi Bankın 2015-ci ilin nəticələrinə görə reallaşdırılmış mənfəətinin dövlət büdcəsinə köçürülməli olan sərbəst qalığı hesabına bağlanmasını təmin etsin və bu zaman qeyd olunan kreditlər üzrə tələb hüquqları Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ötürülsün;

5.9. bu fərmanın 5.8-ci bəndində göstərilən mənbələr hesabına, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ilə əlaqələndirməklə, Azərbaycan Respublikası Beynəlxalq Bankının və Əmanətlərin Sığortalanması Fondunun nizamnamə kapitallarının tələb olunan məbləğdə artırılmasını həyata keçirsin.

6. Azərbaycan Respublikasının Dövlət Neft Fondu, Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının qərarına uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

7. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə, Azərbaycan Respublikası Maliyyə Sabitliyi Şurasının 2017-ci il üçün təsdiq etdiyi pul proqramına uyğun olaraq, pul və fiskal siyasətlərin daha sıx əlaqələndirilməsi istiqamətində tədbirlər görsün.

8. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu fərmanın 1.7.4.10.1-ci yarımbəndində (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) nəzərdə tutulan vəsaitin, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, aidiyyəti təşkilatlar arasında bölgüsünü həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

9. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu fərmanın 1.10.4.2-ci yarımbəndində (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

10. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu fərmanın 1.13.1.1.2-ci yarımbəndində (Qeyri-neft məhsullarının ixracı ilə bağlı tədbirlər) nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

11. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu fərmanın 1.14.3.1.1-ci yarımbəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

12. Növbəti illər üçün dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılması məqsədilə:

12.1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi:

12.1.1. 2015-2016-cı illərdə əlavə dəyər vergisi ödəyiciləri üzrə (fəaliyyət göstərdiyi şəhər və rayonlar göstərilməklə) hesablanmış və dövlət büdcəsinə daxil olmuş vergilərə dair məlumatları 2017-ci il aprel ayının 1-dək;

12.1.2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən ayrı-ayrı dövlət orqanları üzrə dövlət büdcəsinə təmin edilmiş dövlət rüsumuna dair aylıq məlumatları hesabat ayından sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

12.2. 2017-ci il aprel ayının 1-dək aşağıda qeyd olunan məlumatlar Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilsin:

12.2.1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən ölkə ərazisinə idxal olunan mallar üzrə tətbiq edilən əlavə dəyər vergisindən və gömrük rüsumlarından 2015-2016-cı illərdə azad olunmuş hüquqi və fiziki şəxslərə və onların idxal göstəricilərinə dair məlumatlar;

12.2.2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2015-2016-cı illərdə dövlət mülkiyyətinin və torpaqların hər bir hüquqi şəxsə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə icarəyə verilməsi ilə bağlı hesablanmış və dövlət büdcəsinə daxil olmuş vəsaitlərə dair məlumatlar;

12.2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2015-2016-cı illərdə hər bir hüquqi və fiziki şəxs üzrə hesablanmış və fonda ödənilmiş məcburi dövlət sosial sığorta ayırmalarına dair məlumatları.

13. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən geoloji-kəşfiyyat, xəritəçəkmə, şəhərsalma və ərazilərin minalardan təmizlənməsi işlərinin dövlət sifarişi kimi təsdiq olunması üçün təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

14. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi, büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

15. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi 2017-ci il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi ilə bağlı özəlləşdirilmədən daxilolmalar üzrə nəzərdə tutulmuş proqnozun tam məbləğdə büdcəyə təmin edilməsi üçün təsirli tədbirlər görsün.

16. Bu fərmanın 1-ci hissəsi 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2016-cı il*

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

# REGİONLARDA İQTİSADİYYATIN ŞAXƏLƏNMƏSİ PROSESİ DƏRİNLƏŞİR

Son illər Azərbaycan iqtisadiyyatında diversifikasiya prosesi güclənir, yeni istiqamətlər və fəaliyyət növləri üzrə inkişaf meyilləri özünü göstərir. Ölkə əhalisinin təxminən yarısının bölgələrdə yaşadığını nəzərə alsaq, iqtisadi strukturda aqrar bölmənin xüsusi payının və çəkisinin böyük olduğunu izah etməyə ehtiyac qalmır. Böhranın davam etməsinə baxmayaraq 2016-cı ildə də kənd təsərrüfatı məhsullarının istehsalında müsbət dinamika qorunub saxlanılıb.

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə söhbət açarkən demişdir: «Kənd təsərrüfatı 2,4 faiz artıbdır və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir. Kənd təsərrüfatı sahəsində artıq dönüş yaranıb. Müxtəlif sahələr üzrə konkret proqramlar, layihələr icra edilib, böyük vəsait, texnika ayrılıb. Subsidiyalarda güzəştlər edilir. İndi subsidiyalar fermerləri stimullaşdıracaq. 2016-cı il bir sınaq ili idi. Əminəm ki, yaxşı nəticələr olacaq».***

Əgər möhkəm təməl olmasa idi, belə çətin və böhranlı dönəmdən uğurla çıxmaq mümkün olmazdı. Uğurlardan danışarkən, ilk növbədə 2004-cü ildən başlanan və 12 ildir dayanmadan davam etdirilən saysız-hesabsız sosial-iqtisadi və infrastruktur tədbirlərini göz önünə gətirmək lazımdır. Hələ 2008-ci ildə ölkə başçısı tərəfindən qəbul edilən ərzaq təhlükəsizliyi ilə bağlı Dövlət Proqramı aqrar bölmənin inkişafına geniş yol açdı. Məhz ötən illər ərzində həmin proqramın icrası ilə əlaqədar həyata keçirilən sistemli və ardıcıl tədbirlər nəticəsində kənd təsərrüfatında artım dinamikası özünü göstərdi, yerli istehsalın həcmi artdı və bunun hesabına ölkə daxilində ərzaq bolluğunun yaradılması istiqamətində mühüm addımlar atıldı. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2016-cı il ərzində ölkənin aqrar bölməsində faktiki qiymətlərlə 5 milyard 305,2 milyon manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 2,3 faiz çoxdur. Ümumi istehsalın 2 milyard 793,1 milyon manatı heyvandarlıq, 2 milyard 512,1 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Ötən il ərzində ölkə üzrə bitkiçilik məhsulları 2,1 faiz, heyvandarlıq məhsulları isə 2,5 faiz artıb. 2016-cı ildə kənd təsərrüfatının əsas sahələri üzrə məhsul istehsalında müsbət dinamika müşahidə olunub.

Azərbaycanda 3 milyon 601 min ton taxıl tədarük edilib. Bu isə əvvəlki illə müqayisədə 63,4 min ton çoxdur. Kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən hərtərəfli qayğı və diqqət, maliyyə təminatının və texniki təchizatın artırılması nəticəsində bitkiçilik sahəsində orta məhsuldarlıq artıb. 2016-cı ildə taxılçılıq sahəsində orta məhsuldarlıq hər hektara 30,7 sentner təşkil edib.

Mövsüm ərzində sahələrdən 880,2 min ton kartof, 1 milyon 235,4 min ton tərəvəz və 466,5 min ton bostan məhsulları toplanıb. Əvvəlki ilin müvafiq dövrünə nisbətən respublikada kartof istehsalı 48,7 min ton artıb, bostan və tərəvəz məhsullarının istehsalında bir qədər azalma müşahidə olunub. 2016-cı ildə ölkə üzrə 7,1 min hektar sahədə şəkər çuğunduru əkilib və təxminən 300 min tona qədər məhsul götürülüb. Payız mövsümündə Azərbaycanda 876,2 min ton meyvə və giləmeyvə, 134,4 min ton üzüm istehsal olunub, sahələrdən 1002,1 ton yaşıl çay yarpağı və 3594 ton tütün yarpağı yığılıb.

Respublikada cənab prezidentin göstərişlərinə uyğun olaraq, pambıqçılığın inkişafı ilə bağlı xüsusi proqram hazırlanmış, yola saldığımız 2016-cı ildə bu sahədə xeyli zəruri tədbirlər görülmüşdür. Belə ki, ölkə üzrə 52 min 57,7 hektar sahədə pambıq əkilmişdir ki, bu da 2015-ci illə müqayisədə 2,8 dəfə çoxdur. Əkin-səpin və becərmə əməliyyatları yüksək aqrotexniki qaydalara uyğun şəkildə aparılmışdır. Bu məqsədlə 40 adda 1313 ədəd müxtəlif kənd təsərrüfatı texnikası alınmış, 40 ədəd traktor, 54 ədəd kotan, 48 ədəd riper, 162 ədəd pnevmatik və 74 ədəd mexaniki çiyidsəpən maşın, 118 ədəd mala, 184 ədəd kultivator, 94 ədəd gübrəsəpən maşın, 149 ədəd çiləyici, 183 ədəd traktor qoşqusu və başqa yeni texnika fermer təsərrüfatlarının ixtiyarına verilmişdir. Pambıq əkini həyata keçirilən **Sabirabad, Saatlı, İmişli, Bərdə, Ağcabədi, Biləsuvar, Beyləqan, Salyan, Ağdaş, Ağsu və Neftçala** rayonlarında bol məhsul yetişdirilmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2016-cı il dekabrın 20-də ölkə üzrə 86 min 320,5 ton pambıq tədarük edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur.

Ölkəmizdə istifadəsiz torpaqların əkin dövriyyəsinə verilməsi, eyni zamanda, becərilən torpaqların məhsuldarlığının artırılması istiqamətində təsirli tədbirlər görülür. Bu baxımdan cənab Prezident İlham Əliyevin imzaladığı *«Toxumçuluğun inkişaf etdirilməsi ilə bağlı tədbirlər haqqında»* 4 iyul 2016-cı il tarixli sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Sərəncama əsasən, ölkədə yüksək keyfiyyətli məhsuldar bitki sortlarının toxumlarının istehsalı və saxlanılması üzrə ixtisaslaşmış müəssisələrin yaradılması və lazımi avadanlıqların alınması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Kənd Təsərrüfatı Nazirliyinə 12 milyon manat vəsait ayrılmışdır. Hazırda respublikanın taxılçılıq təsərrüfatlarında 2017-ci ilin məhsulu üçün işlər uğurla davam etdirilir. Belə ki, növbəti ilin məhsulu üçün 861 min hektar sahədə payızlıq taxıl əkilib ki, bunun da 524,1 min hektarı buğda, 276,7 min hektarı isə arpadır.

2016-cı ildə kənd təsərrüfatının ikinci aparıcı sahəsi sayılan heyvandarlığın inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm tədbirlər həyata keçirilib. Görülən tədbirlər heyvandarlıq üzrə həm məhsuldarlığın yüksəldilməsinə, həm də mal-qaranın baş sayının artırılmasına səbəb olub. Belə ki, 2016-cı ilin yanvar-noyabr aylarında ölkə üzrə diri şəkildə 435,6 min ton mal-qara və quş əti, 1 milyon 833 min ton süd, 1 milyard 470 milyon ədəd yumurta və 16, 5 min ton yun istehsal edilib. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ölkə üzrə ət istehsalı 1,6 faiz, süd istehsalı 4,3 faiz artıb, yun istehsalı isə 1,6 faiz azalıb.



Aqrar sahədə keyfiyyətli məhsulun yetişdirilməsi və onun itkisiz yığılmasını təmin etmək üçün əsas vəzifələrdən biri istehsalçıların zəruri kənd təsərrüfatı texnikası ilə təchizatının yaxşılaşdırılmasıdır. **2016-cı ilin yanvar-avqust ayları ərzində «Aqrolizinq» ASC tərəfindən 791 hüquqi və fiziki şəxsə güzəştli lizinq şərti ilə 1991 ədəd kənd təsərrüfatı texnikası verilib.**

Bundan əlavə, kənd təsərrüfatı məhsulları istehsalçılarına digər mənbələr hesabına da maliyyə yardımları göstərilmişdir. Belə ki, ötən il Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin vəsaiti hesabına müvəkkil kredit təşkilatları vasitəsilə 28 rayonda fəaliyyət göstərən 97 sahibkarlıq subyektinə 6 milyon 851,4 min manat güzəştli kredit verilib. Həmçinin, Dövlət Xidməti tərəfindən beynəlxalq təşkilatlarla birgə icra olunan layihələr çərçivəsində 29 sahibkara 8415 min manat kredit verilib. Son illərdə dövlət tərəfindən verilən güzəştli kreditlər hesabına ölkədə 43 müasir quşçuluq və 25 heyvandarlıq kompleksi, 39 intensiv bağçılıq təsərrüfatları, 53 logistik mərkəz və 22 taxıl anbarı, 16 meyvə-tərəvəz və 28 çörək zavodu, 9 süd və 8 ət emalı müəssisəsi, 46 istixana kompleksi, 6 yem zavodu və digər müəssisələr yaradılıb. Belə emal və istehsalat müəssisələrinin yaradılması ölkənin kənd təsərrüfatında artıma və inkişafa səbəb olub, onu yeni yüksəliş yoluna çıxarıb, bütövlükdə aqrar bölmədə sənayeləşmə prosesini gücləndirib. Nəticədə, idxal azalıb, ixracyönümlü məhsulların istehsalında artım baş verib. Lakin qarşıya qoyulan hədəflər daha böyükdür: ixracın həcmi bir neçə dəfə artırılmalıdır. Ölkə başçısının aqrar bölmənin qarşısında qoyduğu vəzifə budur.

Bu məsələ haqqında danışarkən cənab prezident demişdir: «Biz nəinki regionda, dünya miqyasında kənd təsərrüfatı məhsullarını ixrac edən çox önəmli ölkəyə çevriləcəyik. Bunun üçün imkanlarımız var. Dövlət siyasəti aparılır. Fermerlərə dəstək göstərilir, subsidiyalar ödənilir, gübrələr, yanacaqlar güzəştli şərtlərlə verilir. Dövlət investisiyaları qoyulur, texnikanın alınmasına aqrolizinq xətti ilə vəsait ayrılır»…

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, 2016-cı ilin yanvar-avqust aylarında Azərbaycandan 218 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları ixrac olunub. Bu, əvvəlki ilin müvafiq dövrünə nisbətən dəyər ifadəsində 28,8 faiz çoxdur. Aqrar sahədə aparılan islahatlar, həyata keçirilən genişmiqyaslı tədbirlər ildən-ilə ixracın artmasına gətirib çıxaracaq. İndiyədək yaradılan təməl mütləq öz bəhrəsini verəcək. Bütün bunlar, yuxarıda da deyildiyi kimi, konkret sahələri və istiqamətləri özündə ehtiva edən konseptual islahat proqramlarının uğurlu icrası nəticəsində baş tutacaq. Cənab prezident tərəfindən müəyyən edilən prioritetlər isə hər bir ölkə vətəndaşının, hər bir sahibkarın, hər bir sadə əmək adamının ürəyincədir. Həmin prioritetlər bunlardır: pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, tütünçülük, şəkər çuğunduru istehsalı və i.a. Göstərilən sahələr əsrlər boyu Azərbaycan xalqının əkinçilik mədəniyyətinə daxil olub, inkişaf edib, formalaşıb. Hələ sovetlər dönəmində Azərbaycanda istehsal olunan məhsullar dünyanın dörd bir yanında özünə şan-şöhrət tapmışdı, xalqın rifah halını, güzəranını köklü şəkildə dəyişmişdi. İndi dünya daha da qloballaşıb, əlaqələr genişlənib, ixracın coğrafiyası əvvəlkindən qat-qat artıqdır.

**Yüksəliş və inkişaf dalğası hər bir bölgəyə, rayona, yaşayış məntəqəsinə bolluq və firavanlıq gətirəcək, minlərlə yeni iş yerləri açılacaq, infrastruktur mükəmməl səviyyəyə gətirilib çıxarılacaq, turizm imkanları genişləndiriləcək. Mingəçevirdə, Gəncədə, Şəkidə və digər bölgələrdə iri müəssisələrin, texnoparkların tikintisi aparılır. Aqrar bölmənin sənayeləşdirilməsi prosesi günü-gündən dərinləşir, şəhərlərə işçi qüvvəsi axını səngiyir. Doğma yurd yerlərinə qayıdış başlayıb. Axı, vətəndə qazanılan çörəyin ətrini, rayihəsini heç nə əvəz edə bilməz!**

*Zülfü İLYASOV,*
*bölgə müxbiri*

# JURNALİSTLƏR ÜÇÜN PR TUR KEÇİRİLDİ



2016-cı il dekabrın 28-də "Excelsior Hotel & Spa Baku" otelində jurnalistlər üçün "AtaHolding" Şirkətlər Qrupunun kommunikasiyalar sahəsində fəaliyyətinin yekunlarının təqdimatı ilə PR tur keçirildi. Təqdimat mərasimində Azərbaycanın aparıcı kütləvi informasiya vasitələrinin: informasiya agentliklərinin, qəzetlərin, jurnalların və elektron medianın jurnalistləri iştirak ediblər.

"AtaHolding" Şirkətlər Qrupunun Korporativ kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova tədbirə toplaşanları ilin yekunları ilə tanış etmiş və qeyd etmişdir ki, il ərzində çoxlu sayda müxtəlif tədbirlər və maraqlı aksiyalar həyata keçirilmişdir. Xüsusilə bildirilmişdir ki, 2016-cı il ərzində daxili kommunikasiyalar planına əsasən aşağıdakı tədbirlər keçirilmişdir: "Excelsior Hotel & Spa Baku" otelinin "Afurca" zalında Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin və «AtaHolding» Şirkətlər Qrupunun birgə təşkilatçılığı ilə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş «Ruhun şad olsun, Ustad!» adlı xatirə gecəsi, «AtaHolding» Şirkətlər Qrupunun əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş futbol turniri, Xocalı faciəsinə həsr olunmuş gecəni, Holdinq əməkdaşlarının Game TV tərəfindən təşkil edilmiş və Respublika gününə həsr edilmiş "Nə? Harada? Nə vaxt" intellektual oyununda iştirakını, HR mütəxəssislərin dəyirmi masasını, Musiqi bayramını və digər aksiyaları göstərmək olar. Tədbir iştirakçılarına «AtaHolding» Şirkətlər Qrupunun 2016-cı ildə keçirdiyi tədbirlərdən video süjetlər nümayiş etdirilmişdir. Xarici kommunikasiyalar planına əsasən, müxtəlif maraqlı tədbirlər həyata keçirilmişdir. Onlardan bəziləri, məsələn, 2016-cı ildə "AtaTravel" MMC-nin "Nepaldan Papayaya səyahət" turunun prezentasiyası, yerli turizm və media şirkətlərinin nümayəndələri üçün Naftalan-Çinar" və "Qalaaltı" istirahət mərkəzlərinə info-turlar, "Excelsior Hotel & Spa Baku" otelində yay mövsümünün açılışı, "Excelsior Hotel & Spa Baku" otelinin təşkil etdiyi "Baku Fashion 2016" tədbirlərində rəsmi tərəfdaşlığı, "AtaTexnologiya" şirkətinin yeni "HMR-360" proqram təminatının təqdimat mərasimi, PR-menecerlərin iştirakı ilə "Nə? Harada? Nə vaxt" intellektual oyununun keçirilməsi, PR mütəxəssislər üçün "Böhrandan əvvəl PR və Kommunikasiyalar" mövzusunda treninq, turizm sahəsində təhsil alan tələbələr üçün treninq və s. daha yaddaqalan olmuşdur. Bütövlükdə, 2016-cı ildə "AtaHolding" Şirkətlər Qrupunun fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrində 5704 məlumat dərc edilmişdir. Media Consulting and Services (MC&S) media monitorinq qrupunun apardığı monitorinqə görə, "Excelsior Hotel & Spa Baku" oteli dəfələrlə mətbuatda ən çox adı hallanan otel olub. «AtaHolding" Şirkətlər Qrupunun fəaliyyəti ilə bağlı 104 pres-reliz işıqlandırılmışdır.




Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədova anası

**RUQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru Mais Bağırov AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanova anası

**MƏLƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə "İqtisadiyyat" qəzetinin əməkdaşı Səfiyyə Səmədovaya anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Səfiyyə Səmədovaya anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin üzvləri Təranə Qurbanova, Mansur Mədətov və Rəşad Hacıbalayev Səfiyyə Səmədovaya anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150